# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№364/1** **09 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin yekunlarına dair hesabat barədə

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 11.10-cu “Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması” bəndinə müvafiq olaraq hazırlanmış “Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin yekunlarına dair hesabat” barədə Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyəti qənaətbəxş hesab edilsin (hesabat əlavə olunur).
2. Məsul şəxslərə (S.Gülməmmədov, F.Qarayev, N.Talıbov, Ş.Əsgərova, Q.Əhmədov) tapşırılsın ki, “Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ın 50 nüsxədə dərc etdirilməsi və aidiyyəti qurumlara göndərilməsi təmin edilsin.
3. Palata sədrinin müşaviri F.Qarayevə, Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, cari ilin may ayının sonunadək “Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin yekunlarına dair hesabat”ın təqdimatının ingilis dilinə tərcümə olunması və Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi təmin edilsin.
4. İcraçı direktor S.Gülməmmədova, Aparat rəhbəri Q.Bayramova, sədrin müşaviri F.Qarayevə və daxili auditor Ş.Əsgərovaya tapşırılsın ki, “Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin yekunlarına dair hesabat”ın icmalının ictimaiyyətə açıqlanması məqsədilə KİV-də məqalənin dərc etdirilməsi təmin edilsin.
5. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, ölkə iqtisadiyyatında səmərəliliyin yüksəldilməsi, şəffaflığın artırılması, düzgün hesabatlılığın təmin olunması, obyektivliyin qorunması, dayanıqlı iqtisadi inkişafın təmin olunması, ƏL/TMM üzrə öhdəliklərinin yerinə yetirilməsi, habelə auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, müstəqil auditə ictimai etimadın və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə riayət etsinlər.
6. Auditorlar Palatasının rəhbərliyinə və aidiyyəti struktur bölmələrinə (N.Talıbov, V.Cavadov, E.Behbudova) tapşırılsın ki, Palatanın Fəxri və assosiativ üzvlüyünə qəbul ilə əlaqədar müvafiq tədbirlərin görülməsi təmin edilsin.
7. Auditorlar Palatasının struktur bölmələrinə tapşırılsın ki, auditin aktual problemləri, dayanıqlı inkişaf, hesabatlılıq və şəffaflıq mühitinin daha da yaxşılaşdırılması, yüksək texnologiyalardan istifadə, rəqəmsallaşma şəraitində auditin koqnitiv inkişafına nail olunması istiqamətində Palatanın üzvlərinin fəaliyyətinə zəruri diqqət və qayğı göstərilsin.
8. Bu qərarın və “Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin yekunlarına dair hesabat”ın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**